Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №2, 2021, **s. 116-119**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №2, 2021, **с. 116-119**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №2, 2021, **pp. 116-119**

MƏKTƏBƏQƏDƏR TƏLİM, TƏRBİYƏ

UOT 373.21:78(075.32)

A.H.Qəribova
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
E-mail: qaribova.arifa@gmail.com

MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏRİNDƏ UŞAQLARIN MÜSTƏQİL MUSİQİ FƏALİYYƏTİ

Açar sözlər: *müstəqil musiqili fəaliyyət, musiqi tərbiyəsi, məşğələ, bayram şənlikləri, oyun və rəqslər*

Məqalədə baxçalarda uşaqlrın sərbəst musiqili fəaliyyəti araşdırılır, ilk dəfə olaraq bu fəaliyyətin mənbələri tədqiq olunur, onun musiqi məşğələlərində mənimsən bacarıq və vərdişlərlə, eləcə də bayram şənliklərində alınan təcrübə ilə əlaqəsi göstərilir. Musiqili oyunlar və rəqslər uşaqların müstəqil fəaliyyətləri üçün böyük imkanlara malikdir. Çox vaxt onlar rollu-süjetli oyunlara daxil olaraq, burada aparıcı rol oynayır. Bu məqam məqələnin yeniliyini müəyyən edir.

А.Г.Гарибова

САМОСТОЯТЕЛЬНАЯ МУЗЫКАЛЬНАЯ ДЕЯТЕЛЬНОСТЬ ДЕТЕЙ В ДОШКОЛЬНЫХ УЧРЕЖДЕНИЯХ

Ключевые слова: *самостоятельная музыкальная деятельность, музыкальное воспитание, занятия, праздничное развлечение, игры и пляски*

В статье рассматривается самостоятельная музыкальная деятельность дошкольников в детских садах, впервые исследуются источники этой деятельности, указывается ее связь с усвоенными на музыкальных занятиях навыками и умениями, а также полученным на праздничных мероприятиях опыте, Музыкальные игры и пляски имеют большие возможности для самостоятельной творческой деятельности детей. Включая в себя сюжетно-ролевые игры, они часто играют здесь ведущую роль. Эти положения определяют новизну статьи.

A.H.Garibova

INDEPENDENT MUSICAL ACTIVITY OF CHILDREN IN PRESCHOOL INSTITUTIONS

Key words: *independent musical activity, musical education, classes, holiday entertainment, games and dances*

The article examines the independent musical activity of preschoolers in kindergartens, for the first time investigates the sources of this activity, indicates its connection with the skills and abilities learned in music lessons, as well as the experience gained at festive events.Music games and dances have great opportunities for independent creative activity of children. Including role-playing games, they often play a leading role here. These provisions determine the novelty of the article.

Uşağı məktəbə hazırlamaq – onu fəal, yaradıcı və şüurlu şəkildə hərəkət etməyi öyrətmək deməkdir. Uşaq baxçasında müstəqil bədii fəaliyyətin inkişafına dair düzgün təşkil olunmuş iş buna köməklik edə bilər. Müstəqil bədii fəaliyyətə oyunlar, səhnəciklər, təsviri fəaliyyət, bədii nitq və musiqi daxildir.

Müstəqil musiqi fəaliyyətində uşaqlar öz təşəbbüsləri ilə nəğmələr oxuyur, halay və yallılar oynayır, uşaq alətlərində sadə melodiyaları çalır, mürəkkəb olmayan rəqsləri ifa edirlər. Onlar özləri "konsert", "teatr", "tamaşa" oyunlarını təşkil edə bilərlər (oyuncaqlar, kuklalar, fiqurlarla).

Uşaqların musiqi ilə məşğuliyyətinin xarakterik cəhəti bundadır ki, onlar özləri, müstəqil olaraq musiqini seçməli, çalmalı, oxumalı, rəqs etməlı, bir şeyi ifa etməli və ya uydurub-bəstələməlidir. Uşaq fəaliyyətini xarakterizə etmək üçün aşğıdakıları qeyd etmək vacibdir: onların musiqi təəssüratlarının mənbəyi; uşaqların marağı, yəni bu və ya digər fəaliyyət növünə meylilik; müstəqil fəaliyyətin təşkili formaları.

Uşaqların musiqi ilə məşğuliyyətinin mənbəyini ilk növbədə musiqi məşğələləri təşkil edir. Burada uşaqlar mahnı repertuarını, oyun və rəqsləri öyrənirlər. Onları müntəzəm olaraq müstəqil hərəkətlərə vadar edirlər. Məşğələlərdə aldıqları bilikləri uşaqlar müstəqil fəaliyyətlərinə keçirirlər. Məsələn, məşğələlərdə uşaqlar çox vaxt alətin müşayiəti ilə oxuyur. Lakin onları müşayiətsiz birgə, xorla və fərdi olaraq oxumağı öyrətsələr, belədə uşaqlar istədikləri vaxt müşayiətin köməyi olmadan oxuya bilərlər.

Uşaqların çoxu musiqi sədaları altında rəqs etməyi, yürüməyi sevir. Lakin onları rəqs musiqisini və ya marşı zümzümə etməyi öyrətsələr, bu zaman onlar böyüklərin köməyi olmadan, öz hərəkətlərini oxuma ilə müşayiət edə

bilərlər.

Uşaqların musiqi ilə məşğuliyyətini gidalandıran digər mənbə bayram və əyləncələrdir. Bunlar uşaq həyatının parlaq səhifələridir. Bayram şənlikləri uşaq baxçasında aparılan bütün ümumpedaqoji işin bir hissəsidir. Burada mənəvi, əqli, fiziki və estetik tərbiyə məsələləri həyata keçirilir. Müxtəlif fəaliyyət növləri bayram şənliklərində aparıcı yer tutur. Uşaqlar mahnı, rəqs, musiqili oyunlar, halay və yallıları ifa edir, uşaq musiqi alətlərində kiçik ansambl şəklində çalırlar. Bayram şənliklərinin ssenarisinə çox vaxt musiqili-dramatik səhnəciklər daxil olunur, uşaqlar özləri uydurduqları rəqs və mahnıları nümayiş etdirə bilərlər. Bir çox tərbiyəçilər qeyd edir ki, bayramlardan dərhal sonra uşaqlar öz oyunlarında bəzi elementləri (rəqs, mahnı və s.) istifadə edirlər. Aldıqları təəssüratlar nə qədər parlaq olarsa, bir o qədər onların müstəqil musiqi ilə məşğuliyyəti maraqlı olur.

Uşaqların müstəqil musiqi fəaliyyətləri üçün çox rəngərəng mənbə ailə də ola bilər. Ən geniş yayılmışları – musiqili televiziya və radio verilişləridir, həmçinin valideynlərin musiqiyə, çalmağa, oxuyub, rəqs etməyə olan sevgi və maraqlarıdır. Maraqlı süjetli musiqili cizgi filmləri də uşaqlarda sevimli mahnıları ifa etməyə istək yaradırlar. Bütün bunlar uşaqların musiqi inkişafına, onların müstəqil musiqili fəaliyyətinə təsir göstərir.

Musiqili oyunlar və rəqslər uşaqların müstəqil fəaliyyətləri üçün böyük imkanlara malikdir. Çox vaxt onlar rollu-süjetli oyunlara daxil olaraq, burada aparıcı rol oynayır. Oyunların arasında "musiqi məşğələləri" və "konsertlər" əsas yer tutur. Bu oyunlar əsas etibari ilə uşaqların musiqi məşğələlərində aldıqları təcrübə üzərində qurulur.

"Musiqi məşğələsi" oyununu oynayaraq, uşaqlar tərbiyəçi, musiqi rəhbəri rollarını paylaşdırır, oyun prosesində musiqi məşğələsinin strukturunu təqlid edir, böyüklərin davranışını və səs intonasiyalarını yamsılayırlar. Məsələn, iki qız tərbiyəçi və musiqi rəhbəri rolunu oynayaraq, kuklaları oturdub onlara bir mahnı öyrədirlər. Bu zaman qızlardan biri ciddi şəkildə qeyd edir: "Bu hissəni biraz yavaş oxuyun, sanki əks səda kimi". Musiqi məşgələsi oyunda daha da geniş, mürəkkəb formaya malik ola bilər: burada bir neçə fəaliyyət növləri birləşdirilə bilər (metallofonda ifa, rəqs, mahnını melodiyasına görə tapma və s.).

"Konsert" oyununda uşaqlar bir neçə nömrənin növbələşməsini təşkil edirlər. Uşaqlar "artistlərə", aparıcı və "tamaşaçılara" bölününrlər. Hərdən bu oyun "orkestr" formasını alır. Bu zaman dirijor təyin olunur və sadə melodiyanı ifa edən ya ritmi vuran musiqiçilər seçilir. Oyun əsanasında uşaqlar özləri də qısa sadə melodiyaları və rəqs hərəkətlərini uydura bilər. Bu yaradıcılıq məqamları çox qiymətlidir.

Digər rollu-süjetli oyunlarda uşaqlar öz oyun hərəkətlərnə uyğun olan mahnıları istifadə edirlər. Məsələn, "Parad" oyununu oynayarkən, onlar

C.Quliyevin "Əsgər marşı" və ya O.Zülfüqarovun "Çal baraban" əsərini oxuyub, barabanı çalaraq marş şəklində yürüyürlər. Qızlar kuklalarını yatızdırarkən, onlara müxtəlif bəstəkarlarımızın "Layla"larını oxuya bilərlər. Mahnı oyunun daha dinamik keçirilməsinə təkan verərək, uşaqların hərəkətlərini təşkil edir.

5-6 yaşlı uşaqlar musiqili səhnəciklərdə bu və ya digər personajın xarakterizə olunması üçün sadə uşaq alətlərini çox maraqlı şəkildə istifadə edirlər. Özü də bu zaman onlar bir-birinə qeydlər də verir: "Dovşan barəsində yumşaq çalmaq lazımdır, canavarı isə bərk, o hirslidir".

Uşaqların müstəqil təcrübələrində musiqini dinləmə də ola bilər. Uşaqların istəyi ilə tərbiyəçi onların seçdiyi musiqi əsərinin CD yazısını birgə dinləmə üçün qoya bilər.

Beləliklə, uşaqlar müstəqil musiqi fəaliyyətinə böyük maraq göstərir, musiqi fəaliyyətinin müxtəlif növlərində mövcud olan musiqi təcrübələrini öz təşəbbüsləri ilə tətbiq edə bilirlər.

ƏDƏBİYYAT

1. İ.Cavadov, L.Cəfərova. Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu), Bakı, 2015
2. İ.Məmmədova "Uşaqların musiqi dünyası", B., 2004
3. A.Vəliyeva, Z.Mayılova, N.Əliyeva. Uşaq bağçalarında musiqi / Proqram və Müntəxabat. Bakı, 2006

Məqalənin redaksiyaya daxil olma tarixi: 30.08.2021
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 01.10.2021
Məqalənin çapa qəbul olunma tarixi: 08.10.2021
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə fəlsəfə doktoru, dosent Mədinə Tuayeva
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.